# Azərbaycan-Avropa İttifaqı enerji dialoqu genişlənir

***Dünən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen və Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson Aİ ilə Azərbaycan arasında mövcud əməkdaşlığı daha da gücləndirmək üçün ölkəmizə səfər ediblər.***



Azərbaycan – Aİ münasibətləri 1991-ci ildə yaranmışdır. Lakin hazırda bu münasibətlər ən yüksək səviyyədə olması ilə seçilir. Çünki ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev beynəlxalq əməkdaşlığın yeni müstəviyə qədəm qoyması istiqamətində bütün imkanlardan istifadə edir. Hazırda Avropa İttifaqına üzv dövlətlərin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, bizim dövlətimizin və hökumətimizin çox böyük nailiyyətidir. Eyni zamanda, daha geniş əməkdaşlıq üçün əlavə imkanlar yaradır.

Təsadüfi deyil ki, bu gün Azərbaycan Avropanın etibarlı enerji təchizatçılarından birinə çevrilib. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin ötən ilin bu günlərində ölkəmizə işgüzar səfəri zamanı bunu yüksək dəyərləndirib: "Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil. Əksinə, bu, birgə iş aparmaq istəyinə, innovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıqdır".

Fərəh hissi ilə xatırladaq ki, 2020-ci ilin son günündə Cənub Qaz Dəhlizinin axırıncı – dördüncü seqmenti olan Trans-Adriatik kəməri istismara verilib və cənab İlham Əliyev bunu tarixi əhəmiyyət kəsb edən hadisə adlandırıb. Bütün bunlar Azərbaycanın dünya üçün, o cümlədən Avropa üçün necə böyük önəm kəsb etdiyini, Prezidentimizin beynəlxalq aləmdə necə yüksək etimad qazana bildiyini göstərir.

Hələ bir neçə gün öncədən yayılan məlumatlarda bildirilirdi ki, səfər zamanı Ursula Fon der Lyayen Bakıda bir sıra yüksək səviyyəli görüşlər keçirəcək. Avropa İttifaqı rəsmilərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə, həmçinin Energetika naziri Pərviz Şahbazov və SOCAR prezidenti vəzifəsini icra edən Rövşən Nəcəflə görüşlərinin, yeni sazişlər imzalanmasının nəzərdə tutulduğu xəbər verilirdi. Bu barədə açıqlama Avropa Komissiyasının rəsmi saytında da yerləşdirilmişdi. Xəbərlərə görə, Avropa İttifaqının istəyi əlavə qaz tədarükü ilə bağlı Azərbaycanla razılaşmalar əldə etməkdir.

Cənub Qaz Dəhlizi Aİ-nin, xüsusən də Cənub-Şərqi Avropanın təbii qaz təchizatında mühüm rol oynayır. Aİ və Azərbaycan eyni zamanda, təmiz enerji və enerji səmərəliliyi üzrə uzunmüddətli tərəfdaşlıq qurmaq üçün birlikdə işləyirlər. Çünki hər iki tərəf "yaşıl keçidi" və Paris sazişinin məqsədlərini reallaşdırır. Aİ və Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, investisiya, ticarət və vətəndaş cəmiyyətinin potensialından tam istifadə də daxil olmaqla, geniş spektrdə əməkdaşlığı genişləndirməyə imkan verəcək yeni hərtərəfli saziş üzrə danışıqlar aparırlar. Prezident Fon der Lyayen və komissar Simson Bakı təmaslarında bu məsələləri müzakirə etmək fikrindədirlər. Görünən budur ki, Aİ-Azərbaycan enerji dialoqu genişlənməkdədir. "Yevroobserver" (ERobserver) nəşri bu barədə konkret olaraq yazıb ki, Avropa ölkələri 2027-ci ilə qədər Azərbaycandan ildə azı 20 milyard kubmetr qaz almaq niyyətindədirlər.

Avropa Komissiyasının prezidenti bildirib ki, Azərbaycan tədarük təhlükəsizliyi və iqlim neytrallığına gedən yolda Avropanın həlledici tərəfdaşı olacaq. Bu barədə o, "Twitter"də yazıb: "Aİ daha etibarlı enerji təchizatçılarına müraciət edir. Bu gün mən Azərbaycana yeni saziş imzalamaq üçün gəlmişəm. Məqsədimiz bir neçə il ərzində Azərbaycandan Aİ-yə qaz nəqlini iki dəfə artırmaqdı". Xanım Simson da Aİ ilə Azərbaycanın arasındakı enerji dialoqunda yaxından iştirak edir.

Tanınmış alman siyasətçisi Ursula Fon der Lyayen 2005-2019-cu illərdə Almaniya Federal hökumətində çalışmış, bu ölkənin tarixində ilk qadın Müdafiə naziri olmuşdur. İxtisasca ginekoloqdur. Yeddi uşaq anası olmaqla bərabər, Angela Merkellə yaxınlığı, siyasət aləmində tanınması və qitə miqyaslı ali vəzifə tutması onun məqsədyönlü bir insan olduğunu göstərir. O, hətta NATO Baş katibliyinə əsas favoritlərdən olub. 2019-cu il dekabrın 1-dən hazırda tutduğu yüksək vəzifədədir. 2020-ci ildə 100 ən nüfuzlu şəxsiyyət siyahısına daxil edilib. Rusiya-Ukrayna münaqişəsi başlandıqdan sonra Ukraynanın Avropa İttifaqı üzvlüyünə qəbulu edilməsinin zəruriliyini bəyan etməsi, aprel ayında Kiyevə getməsi və sair addımları ilə prinsipial və qətiyyətli bir insan olduğunu sübut edib.

Estoniyalı siyasətçi Kadri Simson da Lyayenlə eyni vaxtdan hazırkı vəzifəni tutur. Bunadək Estoniyanın İqtisadiyyat və Kommunikasiya naziri olub. Xatırladaq ki, bir qədər öncə Kadri Simson Bakıda keçirilmiş Cənub Qaz Dəhlizinin (CQD) Məşvərət Şurasının iclasında iştirak və çıxış edib. Qeyd edək ki,.Prezident İlham Əliyevin qonaqlarla geniş tərkibdə görüşü keçirilib.

Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar.

Görüşdən sonra xanım Fon der Lyayen Prezident İlham Əliyevlə birgə mətbuat konfransı keçirib və bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev vurğualyıb ki, bugünkü memorandum əməkdaşlığın gələcəyi üçün yol xəritəsi rolunu oynayır. Prezident qeyd edib ki, Azərbaycanın bu sahədəki səyləri Avropa İttifaqı tərəfindən də dəstəklənib. "Bugünkü memorandum əməkdaşlığın gələcəyi üçün yol xəritəsi rolunu oynayır. Nəzərə alsaq ki, indiyə qədər nələri planlaşdırmışdıqsa, onlara da nail olmuşuq, gələcək planlarımıza da müvəffəq olacağıq", – deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev, həmçinin deyib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uzunmüddətli və etibarlı əməkdaşlıq bizim böyük uğurumuzdur: "Bu, bir çox istiqamətləri, o cümlədən neft, qaz, bərpaolunan enerji növləri, enerji səmərəliliyi və digər sahələri əhatə edir. Azərbaycanın bərpaolunan enerji istehsalı sahəsində təşəbbüsləri Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir. Biz artıq külək və günəş enerjisi ilə işləyən layihələrə sərmayə qoyur, öz potensialımıza dair dəyərləndirmələr aparmışıq. İşğaldan azad olunmuş ərazilərdə külək və günəş enerjisi sahəsində böyük potensial var".

Ursula Fon der Lyayen isə öz növbəsində vurğulayıb ki, Azərbaycanın bərpaolunan enerji sahəsində çox böyük potensialı var. Azərbaycan Prezidenti ilə görüşdə xüsusilə dənizdə külək enerjisi və yaşıl hidrogen enerjisi ilə bağlı müzakirələrin aparıldığını vurğulayan Ursula Fon der Lyayen bildirib: "Bu gün imzalanan Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə biz bu sahədə möhkəm əməkdaşlıq üçün güclü zəmin yaratmış olduq. Bununla da Azərbaycan tədricən Avropa İttifaqının neft və qaz təchizatçısından daha çox etibarlı bərpaolunan enerji təchizatçısına çevriləcək".

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***